**Mənim doğma yurdum Zəngilanın işğaldan azad edilməsindən bir il ötdü. Uzun illər düşmən tapdağı altında qalmış Azərbaycanın bu dilbər guşəsi indi azad nəfəs alır. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu 2020-ci il oktyabrın 20-də bu torpaqdan erməni işğalçılarını birdəfəlik qovdu. Həmin günün sevincini bütün zəngilanlılar yaşadı.**



# Yaraları sağaldan yurdum

Bu dəfə isə dövlət başçımız Zəngilanda quruculuq işlərinin genişlənməsinə dair çox əhəmiyyətli qərarlar verdi. Zəngilan ictimaiyyəti ilə görüşündə cənab Prezident dedi: "Zəngilanın yeni dövrü başlayır və şəhərin baş planı artıq hazırlanır. Bir xarici şirkət müsabiqədə qalib gəldi və hesab edirəm ki, yaxın aylarda baş plan təqdim ediləcək. Bütün bu təbii gözəllik nəzərə alınaraq müasir, çox gözəl bir şəhər qurulacaq, həmçinin də kəndlər. Siz də bilirsiniz ki, azad edilmiş bütün torpaqlarda birinci "ağıllı kənd" layihəsi məhz Zəngilan rayonunda həyata keçirildi. Aprel ayında Ağalı kəndinin təməli qoyuldu. Bu gün mən buraya gəlməzdən əvvəl işin gedişatı ilə tanış oldum. Artıq bəzi binalar hazırdır və çalışacağıq ki, gələn ilin əvvəli, bəlkə də bu ilin sonu zəngilanlıları Zəngilana köçürməyə başlayaq"

İşğalçılar mənim yurdumu talan etmişdilər. Daş-daş üstə qalmamışdı. Təbiətimizə qarşı ekoloji terror törətmişdilər. Tarixi abidələrimiz, məscidlərimiz, inanc yerlərimiz tamamilə dağıdılmışdı. Rayonumuzun ərazisindəki təbii yataqlar vəhşicəsinə istismar edilib, "Bəsitçay" Dövlət Təbiət Qoruğunda nadir Şərq çinarları qırılıb, yandırılıb.

Cənab Prezident Zəngilan səfəri zamanı bildirdi: "Zəngilan işğaldan azad olunandan sonra rayonda yerləşən məscidlərin birində donuzların saxlanması ilə bağlı videokadrlar nümayiş etdirilmişdir. Düşmən bizim dinimizi təhqir edib, bütün müsəlmanları təhqir edib. Bax, burada məscid olub, indi yoxdur, dağıdıblar. İndi bəziləri azad edilmiş torpaqlarda erməni xalqının dini irsi haqqında məsələ qaldırırlar. Bəs, bizim milli-dini irsimiz haqqında niyə heç kim məsələ qaldırmayıb?"

İndiyədək ölkə başçımız dəfələrlə beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırıb. Amma hələ də ikili standartlar qalmaqdadır və bu gün bizə siyasi-mənəvi dəstək verən çox az ölkə var. Əlbəttə, mən qardaş Türkiyə və Pakistanın adlarını məxsusi qeyd etmək istəyirəm.

Artıq Zəngilan azaddır. Bu günlər mənim doğma yurdumda bərpa işlərinə başlanmışdır.

İşğal dövründə bizim təhsil işçiləri də əsl qəhrəmanlıq göstərdilər. Rayonun işğalı ilə bağlı 1993-cü ilin oktyabrın sonunda bütün məktəblər, məktəbəqədər və məktəbdənkənar müəssisələr öz fəaliyyətini dayandırmaq məcburiyyətində qaldılar. Bu işdə Təhsil Nazirliyinin ümumtəhsil məktəblər idarəsi, yerli təhsil şöbələri bizə yaxından kömək göstərdilər. Bütün qüvvələr səfərbər edilərək 1993-cü il noyabr ayında dərs ilinin əvvəlinə aid olan sənədləşdirmə işləri başa çatdırıldı. Bakı, Sumqayıt, Gəncə, Əli Bayramlı (indiki Şirvan) şəhərlərində, Abşeron, Sabirabad və İmişli rayonlarında məktəblərin fəaliyyət göstərməsi üçün yerlər ayrıldı. 1994-cü ilin fevral ayından etibarən məktəblərin müəyyən hissəsi fəaliyyətə başladı.

Hazırda rayon üzrə məktəblərin sayı artaraq 33-ə çatmışdır. Onlardan 31-i tam orta, 2-si ümumi orta olmaqla 22-si Bakı şəhərində, 6-sı Sumqayıtda, 2-si Şirvan, 1-i Sabirabad, 2-si isə Abşeron rayonundadır. Eləcə də uşaq və yeniyetmələrin təlim-tərbiyəsinin inkişafına xidmət edən 2 məktəbdənkənar müəssisə fəaliyyət göstərir. Bu təhsil ocaqlarında 5500-dən çox şagird təhsilə cəlb edilmişdir. Onların sabahın gərəkli vətəndaşları kimi formalaşması, elmi-biliklərə yiyələnməsi işi ilə 912 nəfər müəllim məşğul olur.

Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı nəticəsində biz Zəngilan təhsilini xilas edə bildik.

Bu gün Zəngilanın təhsil kontuingenti işğaldan azad edilmiş doğma torpağımızda təhsil strukturlarının yenidən qurulmasında iştirak etməyə hazırdır.

***Kənan İMAMƏLİYEV,***
***Zəngilan Rayon***
***Təhsil Şöbəsinin müdiri***

Xalq qəzeti.- 2021.- 22 oktyabr.- S.6.